# YERALTI BORU KƏMƏRLƏRİNİN KORROZİYADAN MÜHAFİZƏSİ ÜZRƏ ELEKTRİK MONTYORU VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1. Katod mühafizəsi avtomatik stansiyalarının, yarımkeçiricilər və elektron sxemləri üzrə avtomatik gücləndirilmiş elektrodrenajların konstruksiyalarını və sxemləri
2. Düzlənmiş cərəyanın harmonik cəmləyicilərinin elektrik ölçülməsi üsulları
3. Korroziyadan mühafizə ölçü cihazlarının quruluşu
4. Qeydedici və yarımkeçirici cihazların və elektrik qurğularının quruluşu
5. Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə qayda və normaları

**1. Nəzarət-ölçü sütunları harada quraşdırılır?**
A) Neft kəmərlərinin sualtı keçən hissələrində
B) Neft kəmərlərinin hər bir kilometrində, avtomobil və dəmir yolları altından keçən yerlərdə, su səthinin üstündən keçidlərdə, siyirtmələrin yanında, metal boru kəmərləri və elektrik xətləri ilə kəsişmələrdə
C) Neft kəmərinin yalnız avtomobil və dəmir yolları altından keçən yerlərində
D) Boru kəməri daxilində
E) Yerüstü neft kəmərlərində, hər 100 metrdən bir

**2. Elektrikləşdirilmiş dəmir yolu hissələrinə drenaj kabellərinin və naqillərinin qoşulması və yerləbirləşdirilməsi hansı qaydada aparılmalıdır?**
A) İxtiyari qaydada aparıla bilər.
B) Dəmir yolundan istifadə qaydaları əsasında.
C) Elektrikləşdirilmiş dəmir yolu hissələrinə drenaj kabellərinin, naqillərinin qoşulması və yerləbirləşdirilməsi qüvvədə olan EQQ qaydalarına uyğun və dəmir yolunun müvafiq xidmətinin nümayəndəsinin iştirakı ilə
D) Texnoloji rejim əsasında.
E) Ətraf mühitin mühafizəsi qaydası üzrə

**3. Katod stansiyaları və drenaj qurğularının əsaslı təmiri hansı şəraitdə aparılmalıdır?**
A) Yalnız tras şəraitində
B) Həm tras, həm də stasionar şəraitdə aparıla bilər
C) Səyyar laboratoriyada
D) Stasionar şəraitdə aparılmalıdır, trasda isə sıradan çıxan mexanizmlər dəyişdirilməlidir.
E) Yalnız ixtisaslaşdırılmış müəssisələrdə

**4. Metal qurğuların korroziyadan elektro-kimyəvi mühafizəsi üçün hansı qurğular istifadə olunur?**
A) Siyirtmələr
B) İldırımdan mühafizə qurğuları
C) Biotəmizləyici qurğular
D) Katod stansiyaları, protektorlar, drenaj stansiyaları
E) Elektrik qurğuları

NÜMUNƏ